**Respublika.** - 2024.- 16 noyabr. - № 252. - S. 3.

# İqlim dəyişmələrinə qarşı mübarizədə birinci xanımların fəal rolu

**Ramidə Yaqubqızı**

**Bəşəri problemə çevrilən iqlim dəyişmələri və ətraf mühitin qorunmasında Azərbaycan fəal iştirak edir. Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, həmçinin noyabrın 11-dən ölkəmizdə keçirilən COP29 konfransı bir daha sübut etdi ki, Azərbaycan iqlim dəyişmələri ilə mübarizəyə öz töhfələrini verir.**

Bunu tədbirin yüksək səviyyədə təşkil edilməsi və ölkəmizə gələn çoxsaylı xarici nümayəndələr də təsdiq edir. Müasir dünyanın əsas çağırış və tələblərindən biri olan ekoloji problemlərin həlli və iqlim dəyişmələrinə qarşı mübarizədə Azərbaycanın irəli sürdüyü təklifləri dəstəkləyir, bizimlə birgə əməkdaşlığa maraqlı ölkələr də kifayət qədərdir. İstər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə iqlim dəyişmələrinə qarşı mübarizədə dövlət rəhbərləri ilə yanaşı, birinci xanımlar da aktiv iştirak edirlər. 2022-ci il noyabr ayının 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində "Ümumi evimiz olan Dünya üçün Sıfır Tullantı üzrə Qlobal öhdəliyə dair Bəyannamə" imzalanıb. Türkiyə Respublikasının təşəbbüsü ilə hazırlanan Bəyannaməni Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai imzalayıblar. Əsasən Paris Sazişinə istinad olunan bu Bəyannamənin bütün şərtlərinə yüksək səviyyədə əməl edən ölkəmiz ekoloji problemlərə həssaslıqla yanaşır. Bu baxımdan, Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu ölkədə ekoloji problemlərin həllinə böyük töhfələr verir. Fondun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi aktual ekoloji problemlərin həlli, əhali arasında ictimai-ekoloji nəzarətin gücləndirilməsi məqsədilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində ölkə üzrə genişmiqyaslı tədbirlər həyata keçirib. Eyni zamanda Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu "Hərəmiz bir ağac əkək!" layihəsini uğurla reallaşdırıb. Fondun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən bölgələrimizdə xeyli sayda meyvə bağları salınıb. Fondun təşəbbüsü ilə Xəzər sahillərində təmizlik aksiyalarının keçirilməsi ənənəvi hal alıb. Bütün bunlar isə dövlətimizin ətraf mühitin qorunmasına və iqlim dəyişmələrinə qarşı mübarizədə atdığı addımların bir qismidir.

Birinci xanım Mehriban Əliyevanın böyük şairimiz Nəsiminin 650 illik yubileyi münasibətilə 650 min ağac əkilməsi təşəbbüsü ekologiyanın sağlamlaşdırılmasına sanballı töhfə olmaqla yanaşı, həm də fərqli yanaşmadır. Belə bir nəcib təşəbbüsün həyata keçirilməsi ölkədə böyük rezonans doğuraraq cəmiyyət tərəfindən rəğbətlə qarşılandı. Heydər Əliyev Fondu tərəfindən reallaşdırılan işlər sırasında "Tullantıdan sənətə", "Yaşıl marafon" kimi layihələr də müstəsna əhəmiyyətə malikdir.

Vətən müharibəsində böyük qələbədən sonra dövlətimizin qarşısında duran mühüm məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası idi. Çünki düşmən 30 il boyunca bölgədə sadəcə infrastrukturu deyil, təbiəti də məhv etmişdir. 2021-ci ildə Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində ağacəkmə aksiyası keçirilmişdir. Aksiya zamanı 3 hektar ərazidə dağdağan, göyrüc, saqqızağacı, qarağac əkilmiş, əraziyə 100 kiloqram palıd toxumu səpilmişdir. Fondun təşəbbüsü ilə ermənilər tərəfindən məhv edilən təbiətin və meşə zolaqlarının bərpası bütün Qarabağı əhatə edir. Kəsilən qiymətli ağac növləri yenidən əkilir, çirklənmiş su hövzələri təmizlənir və təbiət yenidən canlanır. Ətraf mühitin mühafizəsi istiqamətində 26 aprel 2024-cü ildə Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Atık Fondu arasında Anlaşma Memorandumu imzalanmışdır. Memoranduma əsasən, hər iki qurum COP29 çərçivəsində, eyni zamanda sonrakı dönəmlərdə də ətraf mühitin mühafizəsi, mədəni irsin qorunması sahəsində əməkdaşlıq edəcəklər.

İqlim dəyişmələri və ətraf mühitin qorunması işində dost, qardaş Türkiyə Cümhuriyyəti də fəal iştirak edir. Ölkənin birinci xanımı Əminə Ərdoğan bu sahədə fəallıq nümayiş etdirərək, yeni təklif və planlarla fəaliyyətini davam etdirir. COP29 çərçivəsində Liderlərin Sammitində iştirak etmək üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla bərabər, xanım Əminə Ərdoğanın da ölkəmizə gəlişi bu məsələni daim diqqət mərkəzində saxlamasından və xüsusi həssaslıqla yanaşmasından xəbər verir. Birinci xanımın təşəbbüsü ilə həyata keçirilən "Sıfır tullantı" layihəsi beynəlxalq səviyyədə geniş dəstək alıb.

Noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda təşkil olunmuş konfransda iştirak edən Azərbaycan, Türkiyə, Özbəkistan və digər dövlətlərin

birinci xanımları sübut etdilər ki, onlar dünyanı narahat edən iqlim dəyişmələrinin fəsadlarına qarşı əzmlə mübarizə aparırlar. Konfransda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina De Dominikis də iştirak ediblər. Konfransın keçirilməsində əsas məqsəd Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişmələrinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən işləri təqdim etməkdir. Tədbirdə iştirak edən Mehriban Əliyeva çıxışında işğaldan azad edilmiş ərazilərə də toxunaraq demişdir: "Əvvəlcə, Sizi Azərbaycanda salamlamaq, sizin hamınıza möhkəm cansağlığı arzulamaq və COP29-da təmsil etdiyiniz ölkələrə sülh və əmin-amanlıq diləmək istərdim. Biz, həmçinin Ermənistanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən günəş və külək enerjisi layihələri ilə bağlı artıq fəal iş aparılır. "Yaşıl enerji"nin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Bakıda keçirildiyi bir ərəfədə tədbirdə iştirak etmək üçün ölkəmizə gələn birinci xanımlar iqlim dəyişmələrinə və ətraf mühitin qorunmasına öz töhfələrini verirlər. Onlar əvvəllər də dəfələrlə Azərbaycana səfər etmiş, ölkədə gedən sosialyönümlü işlərdə yaxından iştirak etmişlər.